Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Qəlbi Turan olan insan Azər Turan

Azər Turanın 55 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*



**Qəlbi Turan olan insan Azər Turan:** Azər Turanın 55 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F.Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 28 s.



**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

*Ədəbiyyat bir millətdəki əhval-ruhiyyənin ifadəsidir.*

*Hüseyn Cavid*

Yer üzünə milyardla insan gəlib-gedib və dünyanın bu insan karvanı yenə öz gedişindədir. Hərəyə bir ömür bəxş edilib. Uzun, qısa və s. fərq həmin ömrü necə başa vurmaqdadır. Həyatın mənası yaşanan illərin sayında deyil, onun necə yaşanmasındadır. Ömür var ki, günü əsrə bərabər. Belə ömür cild-cild kitaba sığmaz. Mənalı ömür sürən insanlardan biri də istedadlı qələm sahibi Azər Turandır. Azər Turan (Əbilov Azər İmamverdi oğlu) tənqidçi, publisist, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikası Əməkdar mədəniyyət işçisi, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Ədəbiyyat qəzeti"nin baş redaktorudur. O, özünün dəst-xətti, yaradıcılıq üslubu, elmi istiqaməti, şəxsi mövqeyi, nüfuzu ilə seçilən ziyalıdır. O, bütöv bir şəxsiyyətdir. Onun cildlərə sığmayan ömür kitabının hər səhifəsi ləyaqətlə, şərəflə yazılıb. Azər Turan bütün əsrlərdə fəxr ediləsi, qədim və şərəfli tarixi olan Azərbaycan xalqının ləyaqətli və qeyrətli oğullarındandır. Qeyrətli və əvəzsiz Azərbaycan müdriki həmişə qürur duyduğumuz, iftixarımız, xalqımızın görkəmli yazıçısı, jurnalisti Azər Turanın ədəbiyyatımızda öz yeri, öz dəsti-xətti var. Gözəl, mənalı olduğu qədər dolu-dolu yaradıcılıq uğurları ilə zəngin həyat sürən görkəmli yazıçı Azər Turanın bu il 55 illik yubileyi qeyd olunur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki bölmədən ibarətdir. I bölmədə onun həyatından bəhs edilir. II bölmədə isə yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

# I Bölmə: Həyat və yaradıcılığı

Azər Turan 16 sentyabr 1963-cü ildə Neftçalada anadan olmuşdur. O, 1970-1980-ci illərdə Neftçalada 1 saylı orta məktəbdə təhsil almışdır. 1984-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. Müəyyən müddət ərzində Neftçala İcra Hakimiyyətində müxtəlif vəzifələrdə çalışmışdır. 2001-2003 –cü illərdə "Yeni Azərbaycan" qəzetində humanitar şöbənin müdiri, "Ədəbiyyat" əlavəsinin məsul redaktoru olmuşdur. "Ədəbiyyat qəzeti" ndə baş redaktorun müavini və baş redaktor əvəzi vəzifələrində çalışmışdır. Hal-hazırda "Ədəbiyyat qəzeti" nin baş redaktorudur. Bununla yanaşı, o, filologiya üzrə fəlsəfə doktorudur.

Azər Turan "Hüseyn Cavid yaradıcılığının ədəbi-fəlsəfi qaynaqları" mövzusunda dissertasiya müdafiə edib (elmi rəhbər akademik Bəkir Nəbiyev). 2000-ci ildən Azərbaycan Universitetinin Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Yazıçılar Birliyi ilə birgə təsis etdiyi "Hüseyn Cavid", 2015-ci ildən isə Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl Kəlmə" mükafatlarının laureatıdır. Azər Turan 22 yanvar 2015-ci ildə "Ədəbiyyat qəzeti" nin baş redaktoru təyin edilib.

Yaradıcılığa 1980-ci illərin əvvəllərində başlayıb. İlk yazıları "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuşdur. 40-dan artıq kitabı nəşr olunub. Əli bəy Hüseynzadə və Hüseyn Cavid irsinin tədqiqatçısı kimi tanınan Azər Turan, əsasən, türk düşüncə tarixini, türk ədəbiyyatında modernizm cərəyanı və onun təzahür şəkillərini tədqiq edir. Mahmud Kaşqarlı, Əhməd Yəsəvi, İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Cəmaləddin Əfqani, Yusif Akçura, Mehmet Akif Ərsoy, Hüseyn Cavid, Yahya Kamal Bayatlı, Fuad Köprülü, Nihal Atsız, Rıza Nur, Zəki Vəlidi Toğan, Bəkir Çobanzadə,

Cənab Şəhabəddin, Əhməd Haşim, Nəcib Fazil Kısakürək, Nazim Hikmət, Orxan Vəli, Edip Cansevər, Cahit Sıtkı Tarancı, Cemal Süreya, Çingiz Dağcı, Çingiz Aytmatov və b. barədə silsilə yazıları Azərbaycanda və xarici ölkələrdə dərc olunub. İstanbulda, Ankarada, Moskvada, Tbilisidə, Bakıda, Almatıda keçirilən elmi konfranslarda məruzələrlə çıxış edib.

İstedadlı publisist Azər Turanın anadan olmasının 55 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər, kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Ədibi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada ilk növbədə müxtəlif başlıqlar altında kitab sərgisi təşkil olunmalıdır. “Əzəl-axır dünya türkün dünyası”, “Cavid sevdalısı – Azər Turan” “Türkçü insan – Azər Turan”, “Qəlbi Turan olan insan”, “Peşəsindən də ucada dayanan vətəndaş”, “Ədəbiyyatdan əbədiyyətə gedən yol”, “Haqq pərvanəsi – Azər Turan”, “Ədəbiyyatımızda İstiqlal marşı çalan Azər Turan”, “Türk dastanının qəhrəmanlarından biri – Azər Turan”, “Turan dünyasının böyük insanı ” və s.

# Kitab sərgisi





















## II Bölmə: Yubileylə bağlı keçirilən tədbirlər

Kitabxanada Azər Turanın 55 illik yubileyi münasibətilə kitablarından ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərginin ətrafında oxucularla söhbət keçirir. Kitabxanaçı öz çıxışından sonra yazıçının sanballı ömür yolu haqqında dəyərli məlumatlarla birgə Azər Turanın müxtəlif illərdə nəşr olunmuş kitabları və onların annotasiyası haqqında məlumat verir. Azər Turanın kitablarından təşkil olunan sərgi oxucular tərəfindən maraq və rəğbətlə qarşılanır. Bütün bunlarla yanaşı, kitabxanaçı həm də onun bir çox ədiblərə həsr etdiyi kitabları ilə də iştirakçıları tanış edir.

*Kitabxanaçı:* Mənəm haqqın aşığı,
Söz haqqın yaraşığı.
Eşqim dünya işığı
Haqq adlı dostdan gəldim...

*Zəlimxan Yaqub*

Ziyalı timsalında el özünün zehni, mənəvi varlığının gerçəkliyini, öz ideallarının carçısını görür. Əsl ziyalılara həmişə ehtiram, qayğı bəsləyir, onlara güvənir. Müasir dünyada öz milli mövqeyini dərk etməkdə onlara hərəkətverici qüvvə kimi baxır. Ziyalı adını ləyaqətlə daşıyanlar isə elin etibarını, ümidini doğrultmağı müqəddəs borc sayırlar. Belə insanlardan biri ziyalı insan, Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan dəyərli ədəbiyyatşünas və publisist Azər Turandır. Onun yaradıcılığının kökü, mayası vətən eşqi torpaq və dünya ilə bağlıdır. Azər Turanın təxəllüsü onun vəsiqəsidir. Azər Turanın "Araz" nəşriyyatında 2003-cü ildə nəşr etdiyi "İrfan çobanı" adlı kitabında türk düşüncəsi, türk ruhu ön plandadır. "İrfan çobanı" adlı kitabında müxtəlif mövzulara toxunulur, amma kitabda ana xətt kimi keçən fikir, ideya – türklük, türkçülük düşüncəsidir. Zəngin tarixə bələdlik,

fərdi mübarizə ruhu, nəslin keçib-gəldiyi yolu onu azadlığa, istiqlala səsləyir. O, Azərbaycanın müstəqil dövlətçiliyi naminə maarifçilik ideallarını irəli sürməkdədir!

Ədəbiyyatımızda Azər Turan adında bir imza var. Bu imza ötən əsrin axırlarından bu günə qədər yol gəlir və bundan sonra da dayanmadan həmin yolu tutub gedəcəkdir. Bu yolun başlanğıcı da Vətən, sonu da Vətəndir! Onun vətən, yurd sevgisinin zamanı intəhasızdır, sonsuzdur.

Torpağım Turandı, yurdum Turandı,
Hayana vardımsa, gördüm Turandı...

Vətənpərvər ədib Azər Turanın "Araz" nəşriyyatında 2004-cü ildə nəşr etdiyi "Cavid Əfəndi" kitabı çağdaş türkçülüyümüzün və turançılığımızın əbədi özül və dayaqlarından birinə - Cavid Əfəndimizə (Hüseyn Cavid) həsr olunmuşdur. Azər Turanın "Vektor" Nəşrlər Evi tərəfindən 2005-ci ildə beş kitabı nəşr olunub: "Tahir Rasizadə", "Ərtoğrol Cavid. "Yazıları, rəsmləri, bəstələri, məktubları", Müşkinaz Cavid "Cavid haqqında xatirimdə qalanlar", M.Səid "Zurubi-əmsal Türkiyyə və Atalar sözü", "Turan Cavid. Son söhbəti...son yaşantıları... son günü".

Azər Turanın 2007-ci ildə "Vətən" nəşriyyatı tərəfindən nəşr edilmiş kitabı "Əzəl-axır dünya türkün dünyası" adlanır. Kitab el sözünə, el sənətinə sadiq bir şair, daha dəqiq desək, aşıq-ozan sənətindən bəhrələnən istedadlı şair Zəlimxan Yaqub haqqında qələmə alınmışdır. Kitabda Zəlimxan Yaqubun yaradıcılığı geniş diapazonla təhlil olunurdu.

Dəyərli qələm adamı Azər Turanın 2008-ci ildə Moskvada nəşr edilmiş kitabı "Əli bəy Hüseynzadə" adlanır.

Azər Turan "Əli bəy Hüseynzadə" kitabında dahi mütəfəkkirin həyat və yaradıcılıq yoluna ətraflı nəzər salıb. Əsərdə Ə.Hüseynzadənin bənzərsiz şəxsiyyəti və elmi-ədəbi irsi tədqiqata cəlb olunur.

Azər Turanı oxuculara sevdirmək və eyni zamanda onun yaradıcılığını oxuculara tanıtdırmaq məqsədilə kitabxanada keçirilə biləcək tədbirlərdən biri də *"İstinad etdiyim gerçək Azərbaycandır"* adlı **sorğu sualdır**. Tədbirə yazarın özü də dəvət edilir və oxucularının ona ünvanladığı sualları birbaşa özü cavablandırır.

*Kitabxanaçı Azər Turanın həyat və yaradıcılığına həsr olunmuş söhbətindən sonra sözü oxuculara verir.*

*Oxucu:* Azər müəllim, "Ədəbiyyat qəzeti"nin baş redaktoru təyin edilməyinizin neçə ili tamam oldu?

*Azər Turan:* 2015-ci ildən "Ədəbiyyat qəzeti"nin baş redaktoru vəzifəsində çalışıram.

*Oxucu:* Bu illərdə qəzetin fəaliyyətini necə dəyərləndirirsiniz?

*Azər Turan:* Mənə elə gəlir bunu siz dəyərləndirsəniz daha uyğun olar.

*Oxucu:* Bəs baş redaktor kimi qəzeti necə görürsünüz? Arzuladığınız səviyyədədirmi?

Azər Turan: Bunun üçün hələ çox iş görülməlidir. Bu işlər isə artıq yalnız məndən asılı deyil, bu işləri görmək üçün təkcə "Ədəbiyyat qəzeti" yox, bütövlükdə, Azərbaycan ədəbiyyatının özü çalışmalıdır. Düzdür, biz müxtəlif layihələr həyata keçirə bilərik və keçiririk də. Amma bilirsiz necədi, ədəbiyyat ilk növbədə, əsərlər deməkdir. Daha önəmli olanı milli ədəbi mətnlərdir. Mətni isə ədəbi cameə yaradır. Keçən dəfə gənclərdən biri yazmışdı ki, Azər Turan azca pəncərəni araladı və "Ədəbiyyat qəzeti" böyük səs-küyə səbəb oldu. Amma mən pəncərəni aralamadım, onu taybatay açdım və tam, bütöv açılmış pəncərədən mətn gəlməlidir, ədəbiyyat gəlməlidir – deyə düşündüm. Mənə elə gəlir ki, qəzetin indiki səviyyədən daha üstün səviyyələrə qalxması üçün qəzetin baş redaktoru olaraq mən deyil, bu gün Azərbaycan ədəbiyyatını yaradan insanlar məsuliyyət daşıyır.

*Oxucu:* Qəzetdə nə kimi dəyişikliklər edirsiz?
*Azər Turan: "*Ədəbiyyat qəzeti" 8 səhifə idi, ondan sonra 16 səhifəyə qalxdı. Bütün bu və digər prosesləri nəzərə alaraq, onu 32 səhifəlik qəzet halına gətirdim. Bildim ki, 8, yaxud 16 səhifədə görmək istədiyim səviyyəyə nail olmayacam. "Ədəbiyyat qəzeti" öz tarixində ilk dəfədir və iki ildir ki, 32 səhifəlik bir qəzet kimi çap olunur. Türkiyə və MDB məkanında 32 səhifə həcmində nəşr olunan ədəbiyyat qəzeti yalnız Azərbaycandadır.
*Oxucu:* Azər müəllim, tiraj nə qədərdir?
*Azər Turan*: 1500. Biz tirajı 10 minə də qaldıra bilərik. Amma ədəbi cameə gərək qəzetin abunəsinə dəstək versin. Tirajın artmasına tələbat böyükdür. Tələbatın səbəbləri də müxtəlifdir. Əvvəla qəzetin bütün həqiqi ədəbiyyat adamlarının mətbu orqanına çevrilməsi. Digər tərəfdən… Bu günə qədər "Sənət sənət üçündür" prinsipi bizdə tətbiq olunmamışdı. Çünki Sovetlər dövrünü, həmin estetikanı qəbul etməyən bir dönəmi yaşadıq. İndi isə azad, müstəqil ölkənin ədəbiyyatçılarıyıq. Mən millətimin bağımsızlığına, ölkəmizin müstəqilliyinə söykənib bir az da "Sənət sənət üçündür" prinsipini tətbiq elədim. Düzdür, bu prinsip çağdaş zamanda aktuallığını itirmiş sayıla bilər, bir məsələ var, bu prinsip tətbiq olunan yerdə sənət də olur, gerçək ədəbiyyat da. Ona uyğun olaraq bir oxucu kütləsi də formalaşır və o oxucu kütləsinin estetik düşüncəsi də həqiqi ədəbiyyat kriteriyalarına uyğunlaşmağa başlayır.
*Oxucu:* Əli bəy Hüseynzadəyə həsr etdiyiniz kitab var. Onun amalı olan "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" konsepsiyası barədə nə deyə bilərsiz?
*Azər Turan*: Əslində mənim yolum da odur. Amma necə? Hansı istiqamətlərə? O istiqamətləri bəlirləmək lazımdır. Bizi Avropanı çox çap etdiyimizə görə qınayanların iradlarını eşidəndə yadıma Əli bəy Hüseynzadənin fikirləri düşür: "Şimdi

bizə derlər ki: madam ki, ingilislər, firənglər, filanlar böylə imişlər, nə üçün siz də "Füyuzat"ınızda ingilislərə, firənglərə müraciət ediyorsunuz. Ortaya gah Hötenin "Faust" unu, gah Şekspirin "Jül Sezar"ını, gah nə bilim hankı avropalının hankı əsərini çıxarıyorsunuz! "Avropalılaşalım" deyorsunuz?! Lakin ey qare, müraciətdən müraciətə fərq vardır. Biz avropalıların ədəbiyyatlarına… müraciət etmək istiyoruz, özlərinə degil. Biz istiyoruz ki, İslam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın". Tutalım bu gün mən qəzetdə Viktor Hüqonun "Kromvel" dramına yazdığı ön sözü çap edirəm, buna irad bildirənin xəbəri yoxdur ki, o ön söz romantizmin manifesti hesab olunub. O manifest 150 ilə yaxındır dilimizə çevrilməyibsə bu, bizim kəsirimiz deyilmi? Yəni ən müasirinə qədər dünyanın bütün ədəbi manifestləri çap olunmalıdır, biz son iki ildə "Ədəbiyyat qəzeti" olaraq bunu qismən gerçkləşdirə bildik. Bunsuz hansı istiqaməti, hansı yolu tutacağımız bilinməz. Əgər pozitivizmin Azərbaycan ədəbiyyatında tətbiqi tarixi öyrənilməyibsə hansı müasir ədəbiyyatdan danışmaq olar? Amma mən sizə, bəlkə də, heç kəsin qəbul eləməyəcəyi bir fikir deyə bilərəm. Hüseyn Cavid yaradıcılığının timsalında Azərbaycan ədəbiyyatında pozitivizm və irfan birləşib. Bəs bu fenomen necə baş verib? Necə ola bilərdi ki, naturalizmlə təsəvvüf bir araya gələ bilsin? Bax, bütün bunlar araşdırılmalıdır. Bəlkə, Azərbaycan ədəbiyyatı deyilən fikrin özü hələlik bu cavablandırılmamış sualların arasında gizlidir.

*Oxucu:* Bir müddətdir "Ədəbiyyat qəzeti"ndə modernizm haqqında silsilə yazılarınız çap olundu. Bu ehtiyac hardan yarandı? Niyə məhz modernizmdən başladınız?

*Azər Turan:* Ədəbiyyatdan başladıq. Özü də qəzetdə tək mənim yazılarım deyil, başqa yazılar da yazıldı. Sovet dönəmində

modernizmlə sosrealizmin açıq savaşı gedib bizdə. “Modernizm həyat və gözəlliyə yabancıdır” doktrinasına tabe tutulub bizim ədəbiyyat. Amma SSRİ ilə birgə ədəbi ideologiya olaraq sosrealizm də süqut etdi. Dünya ədəbiyyatında modernizmin ilk ən böyük abidəsi Coysun “Uliss” romanıdır. Bunu etiraf etməliyik ki, “Uliss”in tam olaraq bu günəcən Azərbaycan dilinə çevrilməməsi dünya ədəbiyyatı ilə qarşılıqlı münasibətlərimizdə bağışlanılmaz kəsirdir. Bu olmayanda bizim hətta müqayisəli ədəbiyyatımız üçün də problemlər yaranır. Yaxud ekzistensial insanın, öz fərdi mənini ortaya qoyan insanın – yəni ilk modernist rəsmlərdən olan Munkun “Çığırtı” əsərindəki insanın yaşantıları ilə Hadinin “Əlvahi-intibah”ındakı fəryadın tonu və fonu təxminən eynidirsə…bunu niyə araşdırmayaq? Yaxud xatırlatmayaq? Bu axı bizi dünyaya yaxınlaşdırır. Dünyanı bizə, bizi dünyaya təqdim edir. “Uliss”lə “Siyasəti-fürusət”in müqayisəsini aparmaqla düşünmürəm ki, yanlışa yol verdim. Eyni sistemli baxış, dünyaya qismən fərqli də olsa, demək olar ki, eyni estetik yanaşma, Dublindən Bakıya qədər paradiqmaların oxşarlığı… hələ üstəlik, nəzərə alsaq ki, Əli bəy Hüseynzadə bu əsəri Coysdan 10-15 il öncə yaradıb, o zaman dərindən düşünməyə dəyər.
*Oxucu:* Sizə görə Azərbaycanın ilk modernist şairi kimdir?
*Azər Turan*: Bəlkə də, Azərbaycanın ən böyük modernist şairi Hüseyn Cavid hesab oluna bilərdi. Amma biz onu romantizm üfüqlərinə təslim etdik. Məhəmməd Hadinin “İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah” əsəri Avropaya çıxara biləcəyimiz modernizm mərhələsinə ciddi hazırlıq idi. Amma biz bunları məktəb, sistem halında öyrənmədik.
*Oxucu*: Qəzetə kimləri cəlb etmək istəyərsiniz?
*Azər Turan*: İstedadı olan, sağlam düşünən, sırf ədəbiyyata işləyən kim varsa, onları. Bir də diqqət istəyirəm. Gördüyümüz

işləri təqdir etmələri lazım deyil, buna ehtiyac da yoxdur, heç olmasa olanlara kölgə salmaqdan çəkinsinlər.
*Oxucu:* Öz yaradıcılığınızda nə kimi yeniliklər var?
*Azər Turan*: Qəzetə gələndən sonra "Alp Ər Tonqa" kitabımı yazdım. "Əli bəy Hüseynzadə" monoqrafiyamı nəşr etdirdim. Hüseyn Cavidin ilk İstanbul nəşrini hazırladım, İstanbulda nəşr olundu. İvo Andriçin məni dərindən maraqlandıran "Drina körpüsü" romanı barədə yazdım. "Modernizm dalğası" silsilə yazılarımı yazıram.
*Oxucu:* Qəzet haqqında düşüncələriniz?
*Azər Turan:* "Ədəbiyyat qəzeti" keçmiş SSRİ-də və Türk dünyasında yeganə 32 səhifəlik ədəbiyyat qəzetidir. Hər gün elektron poçtumuza dünyanın müxtəlif ölkələrindən çoxlu təqdiredici məktublar daxil olur. İstəyirəm ki, bu qəzet dünyada tanınmış ədəbiyyat qəzetlərindən biri olsun.

Böyük, yenilikçi, novator insan Azər Turanın 55 illik yubileyi ilə bağlı keçirilən maraqlı tədbirlərdən biri də poeziya gecəsidir. "*Turan dünyasının böyük insanı*" adlı **gecəni** bilavasitə alimin öz iştirakı ilə keçirmək olar. Həmçinin gecəyə Azərbaycanın görkəmli sənət-söz adamlarını, ədəbiyyatşünasları, oxucuları, jurnalistləri, müəllimləri, poeziya həvəskarlarını dəvət etmək olar. Tədbir ədibə həsr olunmuş slaydla başlayır. Daha sonra aparıcılar səhnəyə yaxınlaşaraq tədqiqatçını və digər qonaqları salamlayaraq Azər Turan haqqında məlumata keçid alırlar.

Ruhumuzu gözəlləşdirən, türkçü şəxsiyyət Azər Turan yaradıcılığını oxuculara tanıtmaq, qələmini onlara sevdirmək və ən əsası da, bütövlükdə məktəblilərə oxu vərdişi aşılamaq üçün kitabxanalarda görüləcək tədbirlərdən biri də *"Cavidnamə"* **oxucularla söhbət** adlanır. Kitabxanaya toplaşan oxucular kitabxanaçı tərəfindən qarşılanır. Kitabxanaçı gələn qonaqları salamladıqdan sonra Azər Turanın

yaradıcılığı haqqında məlumat verir. Dəyərli məlumatdan sonra adı gedən kitabın müzakirəsinə keçid alır.
Kitabxanaçı: Kitabda H. Cavidin, oğlu Ərtoğrolun, qızı Turanın, həyat yoldaşı Müşkinaz xanımın həyatlarının müəyyən hissələri, parçaları yer alır.

Azər düşünür... Bəlkə otuz ildir o hər an
Düşkün bəşərin eşqini, fəryadını inlər.
Yaxdıqca yaxar beynini bir kölgəli böhran,
Əflakə sorar dərdini, yıldızları dinlər.
Göz qırparaq ancaq ona yıldızlar edər naz,
Dilsiz və sağır göylər onun halını duymaz.

Azər Turan "ilk" lərin təmənnasız müəllifi, "sağ ol" belə ummadan tədqiqlərinə girişən elm adamıdır: türkoloq Xalid Səid Xocayev barədə ilk monoqrafiyanın, H.Cavidin qardaşı oğlu - Tahir Rasizadə barədə ilk kitabın, İngiltərədə mühacir həyatı yaşayan Krım-tatar yazıçısı Çingiz Dağçı haqqında bizdə ilk yazının müəllifidir. İsmayıl Hikmətin "Dörd il yarım Azərbaycanda" məqaləsini, Rza Nurun "Xatirələr" kitabından "Bakı" fəslini Azərbaycan oxucusuna ilk dəfə o təqdim edib. Pakistanlı Nobel mükafatı laureatı fizik Abdus Salam haqqında ölkəmizdə ilk geniş məlumatlı "Dahi və dünya" məqaləsini yazıb. Ərtoğrol Cavidin "Yazıları, rəsmləri, bəstələri, məktubları"nın (Bakı, 2005), Mişkinaz Cavidin "Cavid haqqında xatirimdə qalanlar" kitabının (Bakı, 2005), Cavidin arxivindən (və Turan Cavidin transliterasiyası ilə) Təkəzadə M.Səid. "Zurubi-əmsal Türkiyyə yaxud Atalar sözü" (2005), Cavidin ilk Türkiyə nəşri olan "Hüseyin Cavid. Eserleri" (İstanbul, Küsena Yayınları, 2013) nəşrlərinin tərtibçisi və ön sözün müəllifi olaraq, onların yığılıb toplanması, kitab halında meydana çıxması, tarixin dolanbaclarında it-bata düşməməsi naminə bir institutun görə biləcəyi işlərin altına imza atıb.

Ümumiyyətlə, Azər Turan müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığında ədəbi irsi diriltmək, onu təkrar

dövriyyəyə qatmaq missiyasından çıxış edir. Bir tərəfdən "Şəhid türkoloq Xalid Səid Xocayev" (2009) kitabı ilə repressiya irticasının güdazına getmiş dilçi-alimin irsini, elmi yaradıcılığını sovet dövrünün xərabələri altında itib-batmaqdan xilas edir, digər tərəfdən, "Birinci Türkoloji Qurultay", Mahmud Kaşqarlı Divanı barədə "Hz. Yusifə bənzədilən kitab" yazılarını yazır. H.Cavid, İ.Qaspıralı, Ö.F.Nemanzadə, Ənvər Paşa, Fuad Köprülü, Əhməd Ağaoğlu, Zəki Vəlidi Toğan və b. ilə bağlı fundamental, dərin araşdırmalar aparıb bu şəxsiyyətlərin fikir həyatımızdakı əvəzsiz rollarını üzə çıxardır, onların əməllərinin, Azərbaycan, ümumən türk dünyası naminə gördükləri işlərin saçdığı işıqdan sabaha, gələcəyə yollar arayır.

Azər Turanın "Əli bəy Hüseynzadə" kimi monoqrafik tədqiqat əsərlərində əsas məqsəd bir tərəfdən bu şəxsiyyətin yaradıcılıq yolunu, sənətkarlıq xüsusiyyətlərini öyrənmək, onun layiq olduğu tarixi haqqı bərpa etmək idisə, digər tərəfdən bu irsin saçdığı işığı müasir dövrün irəli çəkdiyi problemlərin üzərinə keçirmək idi. Yaradıcılığı sovet dövründə təhrif edilmiş, qəsdən unutdurulmuş, bilərəkdən görməzdən gəlinmiş, üstündən xətt çəkilərək tarixi-ədəbi yaddaşdan silinməyə çalışılan Əli bəy Hüseynzadənin yaradıcılığı 90-cı illərin azad ədəbi üfüqlərində günəş kimi doğulmağa başlayırdı. Tarixin Əli bəy Hüseynzadə irsinə münasibətdə vurduğu mədəni və mənəvi zərbənin rəsmi təshihi isə 2014-cü ildə reallaşdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü il 21 yanvar tarixli Sərəncamı ilə Əli bəy Hüseynzadənin 150 illiyinin keçirilməsinə göstəriş verdi. Ə.Hüseynzadə ilə bağlı dövlət səviyyəsində təsdiqlənən və rəsmi olaraq möhürlənən ilk fikir tarixə bu sərəncamla yazıldı. Böyük ədib haqqında monoqrafiyanın müəllifi Azər Turanın sözləri ilə desək: "tarix bu sözləri yüz il gözlədi". Amma tarixin elə həmin yüzüncü

ilində Əli bəy Hüseynzadə ilə bağlı Azər Turanın ərsəyə gətirdiyi monoqrafiya da (“Əli bəy Hüseynzadə”, Bakı, Litterpress, 2014) rəsmi təsdiqdən sonra durulma qazanan mövqe və münasibət olmayıb, daha əvvəl başlanan bir tədqiqatçı mücadiləsinin, cəsarətinin və əzmkarlığının nümunəsi olaraq doğuldu. Belə ki, buna qədər Əli bəylə bağlı müəllifin özünün çabalarının göstəricisi olan bir sıra işlər vardı ortada: “Turanın ermişi” (2001) məqaləsini yazmış, “Əli bəy Hüseynzadə” (2008, Moskva), “Ali bek Quseyinzade” (2008, Moskva) “Əli bəy Hüseynzadə Turan” (2009), “Ali bey Hüseyinzade Turan” (2012, İstanbul) kitablarını çap etdirmiş, Prezident İlham Əliyevin latın qrafikalı nəşrlərin həyata keçirilməsi ilə bağlı sərəncamına əsasən 2007-ci ildə nəşr olunan Əli bəy Hüseynzadənin “Seçilmiş əsərləri”nin ön sözünün, izahlarının müəllifi və elmi redaktoru olmuş, Əli bəy Hüseynzadənin şeirlərindən ibarət “Əbədi gözəlliklər” (2007, Bakı) kitabını, müasirlərinin Əli bəy haqqında yazdığı məqalələrdən ibarət “Milli məfkurənin atası” (2014, Bakı) toplusunu ön sözü ilə hazırlayıb nəşr etdirmişdi. 2014-cü ildə nəşr olunan “Əli bəy Hüseynzadə” monoqrafiyası isə Azər Turanın bu böyük mütəfəkkirlə bağlı illərlə apardığı araşdırmaların daha bitkin və daha siqlətli sonucu olaraq ərsəyə gəldi. Kitabda XX yüz il türk dünyasının milli-ideoloji düsturu olan – türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq ideyasının müəllifi kimi Əli bəyin əvəzsiz xidməti onun həm öz fəaliyyətinin, həm də müasirlərinin verdiyi dəyərin işığında təfərrüatlı inikasını tapır. “Siyasəti-fürusət” - çağdaş türk humanitariyasının zirvəsi olaraq dərk edilir, ədibin dil siyasəti, erməni məsələsindəki dürüst ideoloji mövqeyi tədqiqatçının dərin elmi analizlərinin büllurunda aydınlıq qazanır. “Füyuzat” mərhələsi Yeni Azərbaycan ədəbiyyatının, romantizm ədəbi məktəbinin bünövrəsi olaraq elmi-nəzəri-metodoloji şüurun

müstəvinə cəlb olunur, Ə.Hüseynzadənin tərcümələri, ədəbi tənqid sahəsindəki fəaliyyəti və dünya ədəbiyyatının tanıdılması və təbliği yönündəki xidməti dövrün irəli çəkdiyi yaddaş kultunun dirçəlişi və reablitasiyası işinə hesablanmış əməli niyyət kimi mənalanır. Bütün bu məziyyətlər "Əli bəy Hüseynzadə" monoqrafiyasının ona qədər mövcud tədqiqatların zirvə məqamı kimi ərsəyə gəldiyini bəlli etməklə bahəm, yeni qurulan düşüncə sistemimizin əsas qaynağına çevrilmə özəlliyini də meydana çıxarır. Çoxqatlı, polifonik düşüncə tərzi, özəl düşüncədən nəşət edən özəl üslub, fikrin, mülahizənin dərin və aydın nəzəri əsaslarla təsdiqi, ciddi elmi postulatları ilə seçilən Azər Turanın "Əli bəy Hüseynzadə" monoqrafiyası ondan müstəqillik illərinin ədəbi-elmi arsenalının dəyərli örnəyi olaraq danışmağa hər cür əsas verir.

Belə bir örnək həm də "Cavidnamə"dir. Azər Turanın Hüseyn Cavidlə bağlı tədqiqləri arasında "Cavidnamə"ni zirvə mərhələ hesab etmək olar. Tədqiqatçının bura qədər axtarışlarını yekunlaşdıran və bundan sonrakı araşdırmalara yön verən sanballı elmi əsərdir. XX əsrin birinci yarısının ədəbiyyatında ehtiva olunmuş nəhəng, planetar düşüncə tərzini meydana qoyan bu monoqrafiya çağdaş Azərbaycan oxucusuna gerçək Hüseyn Cavidi tanıdıb sevdirən sistemli araşdırmadır. Kitab Azər Turanın Hüseyn Cavidlə bağlı müstəqillik dönəmində meydana qoyduğu silsilə və sanballı işlərin, gərgin və dərin axtarışlarının sonucu kimi hasilə gəlir. Həmin silsilə işlərin adları belə bu hüdudsuzluğun siqlətini görükdürməyə kifayət edir: "Hüsni-xuda şairi" (1999), "Əbədi Turan" (2002), "Cavid əfəndi" (2004), "Turan Cavidin son söhbəti, son yaşantıları, son günü" (2005), Ərtoğrol Cavidin bütün əsərlərinin ehtiva edən "Yazıları, rəsmləri, bəstələri, məktubları", (2005), "Tahir Rasizadə" (2005), "Hüseyn Cavid", (2007) və nəhayət "Cavidnamə" (2010).

Cavid irsinin tanıdılması, tanıdılıb sevilməsi yönündə bu tədqiqatların hər birinin rolu danılmazdır, amma bu yöndə gerçəkləşdirilən bir məqamı xüsusi qeyd etmək lazımdır. 2013-cü ildə Prezident Adminstrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri, professor Əli Həsənovun təşəbbüsü və Kaspi Təhsil Mərkəzinin layihəsi əsasında Azər Turan Hüseyin Cavidin əsərlərinin ilk Türkiyə nəşrini hazırlayıb təqdim edir. Bu nəşr şairin irsinin qardaş ölkədə təbliği və tədqiqi istiqamətində rol oynayacaq önəmli məqamlardan biridir. Azər Turanın hazırladığı kitaba Cavidin əsərlərinin əksəriyyəti daxil edilib, mətnlərin mahiyyəti, Cavid üslubu yetərincə qorunaraq Türkiyə oxucusuna təqdim olunub.

2001-ci ildən etibarən "Yeni Azərbaycan" qəzetində "Ədəbiyyat" buraxılışı nəşrə başlayır və buraxılışın məsul redaktorluğu qəzetin humanitar şöbəsinin müdiri Azər Turana tapşırılır. Müstəqilik dövrünün ilk "Ədəbiyyat" əlavəsi (2001-2003) olan bu qəzet 90-cı illərin dramatik və gərgin ədəbiyyat axtarışlarından, boşluq və nəfəsdərim dövründən, qarışıq, çaşqın fikir polifonizmindən sonra ədəbiyyatda böyük bir missiyanı realizə etməli olur. Milli müstəqillik illərində tənqidi fikrin gəlişməsinə, ədəbi prosesin oyanışına və müxtəlif "səs" lərlə ifadəsinə yol açan bu amili xüsusi qeyd etməyə ehtiyac var. Belə ki, "Ədəbiyyat" əlavəsinin səhifələrində ilk dəfə olaraq müxtəlif ədəbi cərəyanlar, dünya ədəbiyyatından tərcümələr, sovet dövründə qadağan olunmuş mövzulara qayıdış və onların sağlam ədəbi-nəzəri müstəvidə doğuluşu baş tutur. Yeni düşüncə quruculuğunda elm və ədəbiyyatın birgə fəaliyyəti "Ədəbiyyat" əlavəsinin əsas manifestasiyasını təşkil edir.

Azər Turanın "Ədəbiyyat" əlavəsindəki məqalələrinə diqqət yetirsək görərik ki, bu məqalələrin hər biri müəllifinin yüksək erudisiyası, prosesləri düzgün və dəqiq qiymətləndirməklə

bahəm, cəsarətli üslubu ilə seçilir. Azər Turanın məqalələr toplusu kimi nəşr olunan "İrfan çobanı" kitabında əksər məqalələr esse janrında qələmə alınıb. Bu illər tənqiddə yaranan canlanmanın əsas səbəbi bir tərəfdən yeni metod və cərəyanların, sovet dövründə qadağan olunmuş müxtəlif "izm" lərin ədəbiyyatımıza gətirilməsi ilə bağlıdırsa, digər tərəfdən tənqidçi və yazıçıların esse janrına müraciət edərək onun qüvvətli nümunələrini yaratmaları ilə əlaqədar idi. Xüsusilə, ikinci səbəb tənqidimizdə hadisə, onun inkişafında irəliyə addım sayıla bilərdi. Anarın "Gecə düşüncələri", Elçinin "Ədəbi düşüncələr", K.Abdullanın "Əvvəl-axır yazılanlar", "Yolun əvvəli və axırı", K.V.Nərimanoğlunun "Mənim Füzulim"... Sonradan esse janrının maraqlı nümunələri meydana qoyulacaqdı. Bu arada Azər Turanın "İrfan çobanı" da vardı, səksəninci illərin sonunda "Gənclik" jurnalında, doxsanıncı illərin önlərində "Aydınlıq" və "İlham" qəzetlərində, 2000-ci illərin əvvəllərində "Yeni Azərbaycan" qəzetinin "Ədəbiyyat" əlavəsində çap olunan silsilə düşüncə yazıları vardı ki, uzun illərin ideoloji nəzarət və basqısından, təzyiq və buxovundan sonra ədəbiyyata və sənətə açıq münasibətin, həyata və dövrə fəlsəfi yanaşmanın təzahürü kimi meydana çıxırdı. "Azərbaycan özgürlüyünün ilk şəhidi" Xudu Məmmədov, "elmin zirvəsinə ucalan yolu Bismillahdan başlayan" pakistanlı Nobel mükafatı laureatı Abdus Salam, "qorxu və ayrılıqlar çağı"nın kədərli şairəsi Anna Axmatova, "istiqlalın ən romantik poeziyasını yaradanlar" - Məhməd Akif Ərsoy, Hüseyn Cavid, Nihal Atsız, milli düşüncəmizi aydınladanlar-H.Zərdabi, Ə.Hüseynzadə, İ.Qaspıralı, Yusif Akçura ... bu şəxsiyyətlərin hər biri Azər Turan üçün irfan çobanlarıdı, elm və ədəbiyyatı qoşa qanad kimi varlığında təcəssüm etdirən, qaval çalıb yatmış vicdanları inlədən əfəndilərdi. Ömrünü, rahatlığını millətin azadlığı, aydınlığı

yolunda fəda edənlərdi. Bu məqalələrin hər birində yeni olan yalnız milli fikrin, türklük düşüncəsinin mətnlərə sirayət edən gücü, ədəbiyyat tarixi gizlinlərinə baş vurmaq cəhdi deyildi, yenilik yanaşma tərzinin özündə idi. Burada bütün hallarda daxili azadlıq və sərbəstliyini qabardan fərdi "mən" yeni dövr tənqidinin öyrəşmədiyimiz, alışmadığımız cəsarətli obrazı idi. "Dante ilə üz-üzə", "Səlib məfkurəsi: həqiqət və müəmma", "Biriyavari tənhalıq", "Sufi fenomeni"... esseləri ilə tənqiddə yeni bir dalğa hərəkətə başlayırdı. Sovet dövrünün tabularına etina edilmir, türk düşüncəsi önə keçirdi. Bu məqalələr tənqidi yalnız bədii əsərlərin şərhi, təhlili ilə məşğul bir janr kimi səciyyələndirmək meyillərini eroziyaya uğradıb, ona daha geniş ərazidə, ölçü və miqyasda, heç nəyin qoşqusu olmadan, müstəqil kontekstdə nəzər yetirməyin gərəkliyini sübut edirdi.

Hər bir insan həm öz ölkəsinin vətəndaşı, həm də bütövlükdə yer planetinin sakinidir. Amma adi insanların çoxu ölkə və planet miqyasında deyil, öz şəxsi həyatı, ailəsi, işlədiyi müəssisə miqyasında düşünür və fəaliyyət göstərir. Elm adamını isə nəinki təkcə özü, ölkəsi ya da planet, bütövlükdə kainat və onun bütün problemləri-hamısı maraqlandırır.

Dünyada ilk qədəmlərimizi atarkən doğulduğumuz torpağın adı bizim hələ sadə, təfəkkürümüzdə Vətən mənasındadır. Sonra bu ad məktəb dəftərimizin üstünə yazılır, məktublarımızın üstündə bir ünvan kimi dünyanı dolaşır. Daha sonralar ömür pasportumuza yazılaraq bütün həyat boyunca bizimlə birgə yaşayır. Azər Turan da ədəbiyyatımıza, poeziyamıza öz imzası, adı, soyadı ilə yazıldı. Şanla-sanballa yazılan bu imza ədəbiyyatımıza silinməz möhür vurdu və daha neçə-neçə əsərlər yazıldıqca da, vurulacaq... Ürəyinizə hərarət, qələminizə bərəkət, qəlbi Turan olan insan. Yaşayın və yaradın!.. Tanrı sizi və sizin simanızda vətən övladlarını qorusun.

## Ədəbiyyat siyahısı

### *Əsərləri*

İrfan çobanı. - Bakı : Araz, 2003. - 350 s.
Cavid Əfəndi... - Bakı : Araz, 2004. - 307 s.
Əzəl-axır dünya türkün dünyası... - Bakı : Vətən, 2007. - 212+8 s.: rəngli foto.
Əli bəy Hüseynzadə - M. : SALAM press, 2008. - 280 s.
Cavidnamə - Bakı: Elm və Təhsil, 2010. – 576 s.
Əli bəy Hüseynzadə : həyatı, mübarizəsi, yaradıcılığı, şəcərəsi. - Bakı : Letterpress, 2014. - 544 s. : rəngli foto, foto

### *Dövri mətbuatda*

Abidə insan : Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 14 mart. - № 16/17. - S. 2-3.

Alp Ər Tonqa // Ədəbiyyat qəzeti. - 2015. - 16 may. - № 30/31. - S. 20-21. ; № 43. - S. 20-21. ; № 44. - S. 46-47. ; № 45. - S. 22-23. - Qəzetin 4 iyul tarixli 43-cü sayında məqalə "Azərbaycan və Anadolu fatehi Alp Ər Tonqa" başlığı altında dərc olunub.

Anarın yaşamaq haqqı // Ədəbiyyat qəzeti. - 2018. - 10 mart. - № 9. - S. 32.

Ayrılıqların sürreal mənzərəsi : Ümid Nəccari haqqında // Ədəbiyyat qəzeti. - 2018. - 11 avqust. - № 30. - S. 10.

Azərbaycan bayrağını mənalandıran üç ümdə amilin ideoloqu Əli bəy Hüseynzadədir : yaxud professor Bədirxan Əhmədlinin diqqətinə // Ədəbiyyat qəzeti. - 2016. - 30 yanvar. - № 4. - S. 10-11.

Azərbaycan həsrətlisi Səlim Turan : O, türk rəssamlığında ilk modernist idi // Qobustan. - 2018. - № 1. - S. 21-25.

Batan ayın kənarında sətirlər : [türk şairi Əhməd Haşimin yaradıcılığı haqqında] // Ədəbiyyat qəzeti. - 2017. - 25 fevral. - № 7. - S. 12.

Bir qəribə şair - Orxan Vəli // Ədəbiyyat qəzeti. - 2017. - 14 yanvar. - № 1. - S. 11.

Böyük sirrin yenidən oxunuşu : Rüstəm Kamalın doğum gününə // Ədəbiyyat qəzeti. - 2018. - 7 iyul. - № 26. - S. 10.

Çarmıxa çəkilmiş Ruhun Məryəm Anası : "Modernizm dalğası" silsiləsindən // Ədəbiyyat qəzeti. - 2017. - 13 may. - № 17. - S. 9.

Caz, sadəcə, musiqi deyildir // Ədəbiyyat qəzeti. - 2018. - 23 iyun. - № 24. - S. 10-11.

Ceyms Coyc və Əli bəy Hüseynzadə : "Modernizm dalğası" silsiləsindən // Ədəbiyyat qəzeti. - 2016. - 2 iyul. - № 25. - S. 12-13.

“Dəlixana divarını öpdü çinar budaqları” – Vaqif Səmədoğlunun “Əlin sınaydı, sanitar, o qızı döydüyün yerdə” şeiri və Van Qoqun "Dəlilər evinin bağçası" tablosu barədə qeydlər Ədəbiyyat qəzeti. - 2018. - 3 fevral. - № 4. - S. 3.

Dünya poeziyasının türk şahzadəsi : türk şair, yazıçı Nazim Hikmət haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 16 yanvar. - № 2/3. - S. 30-31.

Dünyanın Cavad mifi - Azərbaycan modernizmi : [azərbaycanlı rəssam, Əməkdar incəsənət xadimi Cavad Mircavadov haqqında] // Ədəbiyyat qəzeti. - 2018. - 21 iyul. - № 28. - S. 3.

Ədəbiyyatımızda İtirilmiş nəsil anlayışı yalanların ən böyüyüdür : Azər Turan: 40 yaşına yaxın olan və hələ də "gənc" qalan yazarlarımızın elə öz məhəlləmizdə meydangirlik etməsi adamı ağrıdır (söhbətləşdi: Seyidzadə. C.) // Kaspi. - 2017. - 16 sentyabr. - № 151. - S. 16-17.
Ədəbiyyatın hüsnu "Drina körpüsü"ndə : [Nobel Ədəbiyyat Mükafatlı Xorvatiya yazıçısı İvo Andriçin "Drina körpüsü" əsəri haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - № 13.

Əli bəy Hüseynzadənin və Hüseyn Cavidin dil siyasəti // Ədəbiyyat qəzeti. - 2015. - 26 iyun. - № 41/42. - S. 8-9.

Əli bəyin Səlimi : İstanbulda doğulmuşdu, Parisdə öldü : Səlim Turan - 100 / A. Turan // Ədəbiyyat qəzeti. - 2015. - 20 fevral. - № 11. - S. 8-9.

Erudit zəkanın və orkestral ruhun əsəri : Əli bəy Hüseynzadənin "Siyasəti-fürusət" adlı əsəri haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 29 avqust. - № 48. - S. 30-31.

Eserin "Uçaq quşlar"ı Xudu Məmmədov səmasında : Xudu Məmmədov - 90 // Ədəbiyyat qəzeti. - 2017. - 9 dekabr. - № 46/47. - S. 20-21.

Eşqi həmişələr gəlir yanıma // Ədəbiyyat qəzeti. - 2018. - 1 sentyabr. - № 32. - S. 5.

Faktdan danışırıqsa : professor Bədirxan Əhmədlinin diqqətinə : 24 fevral Əli bəy Hüseynzadənin doğum günüdür // Ədəbiyyat qəzeti. - 2016. - 20 fevral. - № 7. - S. 24-25.

Fazla şiirden öldü Edip Cansever // Ədəbiyyat qəzeti. - 2017. - 10 iyun. - № 21. - S. 11.

Göydə avazın qalsın... : Türkiyədə - Afyon Karahisarda, Yunus Əmrənin haqqa qovuşduğu ehtimal edilən Sandıqlıda Xalq şairi Zəlimxan Yaqubla unudulmaz görüşü // Ədəbiyyat qəzeti. - 2015. - 26 dekabr. - № 64. - S. 10.

H.A.Şmidenin Əliyev sevgisi : Heydər Əliyev - 95 // Ədəbiyyat qəzeti. - 2018. - 12 may. - № 18. - S. 4.
Hansı Avropa? // Ədəbiyyat qəzeti. - 2017. - 25 noyabr. - № 42/43. - S. 6.

İstinad etdiyim gerçək ədəbiyyatdır : ["Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turanın kulis.az saytına müsahibəsi / söhbətləşdi M. Ağaoğlu] // Ədəbiyyat qəzeti. - 2016. - 12 noyabr. - № 42. - S. 20-21.

Laləlidən dünyaya gedən bir tramvaydayız : Cemal Süreya haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 29 iyul. - № 27. - S. 8-9.

Mavi, masmavi bir işık : türk şairi Əhməd Hamdi Tanpınarın "Nə içimdəyim zamanın" şeiri haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 23 sentyabr. - № 33. - S. 20.

Mehtab, iri güllər və sənin ən gözəl əksin... // Ədəbiyyat qəzeti. - 2015. - 12 dekabr. - № 62. - S. 22.

Mirəli Seyidov - 100 // Ədəbiyyat qəzeti. - 2018. - 28 aprel. - № 15. - S. 1.

Modernist estetikaların iqlim qurşağı - "Rənglər" // Ədəbiyyat qəzeti. - 2017. - 11 noyabr. - № 40. - S. 9.

Modernizm dalğası // Ədəbiyyat qəzeti. - 2016. - 28 may. - № 20. - S. 10. ; 4 iyun. - № 21. - S. 16-17.

On iki misra - fəlakətin soyuq mənzərəsi : türk şairi Sürəyya Berfenin "Kıbrıs" şeiri haqqında : 1 şeir/2 rakurs // Ədəbiyyat qəzeti. - 2016. - 3 dekabr. - № 46-47. - S. 16.

Orhan gibi vaktinde gitmek varken : [türk yazıçısı Cahit Sıtkı Tarançının yaradıcılığı haqqında] // Ədəbiyyat qəzeti. - 2017. - 22 aprel. - № 14. - S. 8-9.

Professor : Fuad Körpülü haqqında düşüncələr // Ədəbiyyat qəzeti. - 2017. - 15 iyul. - № 25. - S. 2-3.
Quşlar saatla yox, işıqla başlayır oxumağa : fransız yazıçısı Jak Preverin "Bir quşun rəsmini çəkmək üçün" şeiri haqqında // Ədəbiyyat qəzeti. - 2018. - 7 aprel. - № 12. - S. 10.

Rəqs edən dilin şairi - Yahya Kamal Bayatlı // Ədəbiyyat qəzeti. - 2016. - 10 dekabr. - № 48-49. - S. 14-15.

Ruh dəyişmə, birin ikiləşməsi... : İskəndər Palanın "Şah və Sultan" romanı barədə // Ədəbiyyat qəzeti. - 2016. - 9 yanvar. - № 1. - S. 30-31. ; 16 yanvar. - № 2. - S. 14. ; № 3. - 16 yanvar. - S. 14-15.

Sən dəniz qoxuyursan, Çingiz Dağçı // Ədəbiyyat qəzeti. - 2016. - 24 dekabr. - № 51/52. - S. 8.

Şər çiçəkləri : "Modernizm dalğası" silsiləsindən // Ədəbiyyat qəzeti. - 2016. - 8 oktyabr. - № 37. - S. 15.

Sevgi məktubu kimi: Ramiz Rövşənin "Sevgi məktubu" şeirinin təhlili // Ədəbiyyat qəzeti. - 2018. - 21 aprel. - № 14. - S. 7.

Sonuncu Yeni - Şəhriyar del Gerani // Ədəbiyyat qəzeti. - 2018. - 28 aprel. - № 15. - S. 11.

"Söylə, ey Tanrı, dizlərin nerədə..."Türk şairi Cənab Şəhabəddinin yaradıcılığı barədə qeydlər. Ədəbiyyat qəzeti. - 2016. - 4 noyabr. - № 39. - S. 5.

Tuna boylarında sıra sərvilər : Məhməd Fuad Körpülü barədə qeydlər : Məhməd Fuad Körpülü - 125 // Ədəbiyyat qəzeti. - 2015. - 25 aprel. - № 24/25. - S. 16-17.

Turan Cavidin son söhbəti // Mədəniyyət.az. - 2016. - № 10. - S. 12-17. ; № 11. - S.18-23.

Üşüməsin mənim türk çiçəklərim : Krım Tatar yazıçısı Çingiz Dağçı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 18 aprel. - № 22/23. - S. 11.

Vaqif Bayatlının həndəsəsiz aləmi // Ədəbiyyat qəzeti. - 2017. - 4 noyabr. - № 39. - S. 3.

Vətənin Elçini : Elçin Əfəndiyev - 75 // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 32.

Yeni düşüncə təmayülləri : [Elnarə Akimovanın "Çağdaş poeziya və ədəbi təmayüllər" kitabı haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - 19 mart. - № 11. - S. 10.

Zəki Vəlidinin təlqinləri : Zəki Vəlidi Toğan - 125 // Ədəbiyyat qəzeti. - 2015. - 26 dekabr. - № 64. - S. 4.

## *Haqqında*

Akimova E. Çağdaş ədəbiyyatşünaslığının Azər Turan səhifəsi : [Azər Turan haqqında ən gerçək obrazı XX əsrin əvvəllərində Hüseyn Cavid cızır] // Kaspi. - 2016. - 10-14 sentyabr. - № 143. - S. 16-17.

Akimova E. Modern dünya savaşı : [Azər Turanın "XX əsr: Fəryadın metafizikası" adlı kitabına ön söz] // Ədəbiyyat qəzeti. - 2017. - 16 sentyabr. - № 32. - S. 12-13.

Anar (Xalq yazıçısı). Türk düşüncəsi. (Azər Turanın “İrfan çobanı” kitabına ön söz].
Cəfərov N. Turan sevdası. [Azər Turanın 50 illiyinə]. “Ədəbiyyat qəzeti”. -2013. - 13 sentyabr, № 30 – S. 4

Həbibbəyli İ. Cavidşünaslıqda yeni səhifə. [Azər Turanın “Tahir Rasizadə” kitabına ön söz] VEKTOR – Bakı – 2005 – S. 3-5
Söhrab T. Azər Turan : [ Ədəbi şəxsiyyətlər haqqında esselər silsiləsindən]. Kredo – 2006. - 20 yanvar № 2

Yaqub Z. Azər Turanın “Cavidnamə”si. [Azər Turanın “Cavidnamə kitabı barədə] “525-ci qəzet” - 2010. - 25 dekabr. № 191. S. 8

**Qəlbi Turan olan insan Azər Turan**

(metodik vəsait)


**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 51
Çapa imzalanmışdır: 07.09.2018
Tirajı:100
Pulsuz